

*Məmməd İlqarın doğum günü münasibətilə şeirlərini təqdim edirik.*

***

*İlahi! Belə də gözəl olarmı?-*
*Kimdi qələm çəkən, nə gözəl çəkir.*
*Üz- üzə, göz- gözə sehrlənmişik,*
*Nə mən göz çəkirəm, nə gözəl çəkir,*

*Güney gözlüm, gözəllikdə bircəsən,*
*Bu güllükdə bir mən olam, bircə sən...*
*Gül üstündə arıya bax bircə sən-*
*Gör gülün nazını nə gözəl çəkir?...*

*Salma gəl Məmmədi gözündən, gözəl,*
*Gözüm gözmü görüb gözündən gözəl !..*
*Mən ölmüş neynim ki, gözündən, gözəl-*
*Nə bir könül doyur, nə göz əl çəkir !*

***

*Ay gözü göyçəyim, gözün hardadı -*
*Dən salıb saçıma dərdin dən, belə…*
*Yeriyən, danışan ölüyəm sənsiz -*
*Kim ölər mənimtək dərdindən belə?..*

*Dərd oxuna nişangahdı sinəm də,*
*Dərd əlindən ha gizlənəm, sinəm də.*
*Nə dərd desən yuvalanıb sinəmdə -*
*Bir bala sərçənin dərdindən belə…*

*Tapşır gözlərinə ilqara gəlsin,*
*Qiyma ki, ay qara, il qara gəlsin.*
*Gələn dərdin Məmməd İlqara gəlsin -*
*Neynər dərdli kəsə dərd indən belə?!.*

***

*Əcəb gündü - günlərin ən gözəli,*
*Gördüm səni - əcəb düşdüm oda mən.*
*Camalın ki, şölə verib yanırdı,*
*Bax, o gündən səcdəliyəm oda mən.*

*Kəsmə kərəmini, bir kərəm eylə,*
*Neynək, kərəmini bir kərəm eylə…*
*Gəl yandır, məni də bir Kərəm eylə -*
*Yəqindi ki, yanmalıdı od əmən.*

*Açmadınsa, hər yetənə qəlbi - düz!*
*Məcnundusa, fərqi nədi: qəlbi, düz?*
*Səndən ötrü əhdi qayım, qəlbi düz,*
*Məmməd adlı bir şair var - o da mən!*

***

*"Sənə də qar yağdı, güvəndiyim dağ."*
*Özün bir vaxt dost demirdin mənə bə?*
*Məsəl var ki- "dost-dostuna tən gərək",*
*Tənə gəlir bu dostluqdan mənə bə...*

*Nənəm derdi-bir verməsən üç alma,*
*Oxu bir al, birinci ol, üç alma.*
*Nağıl bitdi, göydən düşdü üç alma,*
*Biri ona, biri buna, mənə bə?..*

*Kişi gərək "qan bağlaya" şər kəsə,*
*Heç bir dosta tuş gəlməsin şər, kəsə!*
*Qatma məni "bə!" dediyin şər kəsə,*
*Mənəm-Məmməd İlqar-indi mənə "bə"?*

***

*Qönçələr bürüyüb çölləri yenə*
*Açallar, inşallah, gül, gülə-gülə*
*"Görəllər-güləllər" gəlməz eyninə,*
*Sarılar, sarmaşar gül gülə, gülə.*

*Güllər al-əlvandı, bülbüllər sarı,*
*Görməsin gül üstə bülbüllər sarı.*
*Güllər gülümsünər bülbüllər sarı,*
*Görən, varmı görən gül gülə gülə*

*Yarəb, yetir məni bir gülə, dedim,*
*Məmmədin könlü də bir gülə-dedim.*
*Açdım ürəyimi bir gülə dedim*
*Ağlar qoydu məni gül gülə-gülə*

***

*Ən gözəl dərdimsən dərdlər içində,*
*Dərdindən düşmüşəm dərdə mən, gözəl.*
*Dərd gözəl çəkilir - əgər gözəlsə,*
*Gözəl dərd diləsən, dərdəm - ən gözəl.*

*Sərdim gülşənini dərdə, mən ömrün,*
*Dər gülüm, gülünü dər də, mən - ömrün.*
*Hər günü ölümdü dərd əmən ömrün-*
*Ölərmi sən kimi dərd əmən, gözəl?!*

*Məmməd, könül sevdi, kimə nə, dərdi*
*Özgə kim sevdirər ki, mənə dərdi?...*
*Bilməm bu sevginin kimə nə dərdi?*
*Mənə dərd gözəldi, dərdə mən gözəl!*

***

*Qarı dünya, bu nə qovğa,nə qaldı-*
*Aman ver,aman ver,a yağı,bir...bir...*
*Öyündüyüm-güvəndiyim nə qaldı?*
*Alırsan əlimdən a yağı,bir-bir.*

*Ha çağırdım-taleyim hey...baxtım hey...*
*Gah bulanıb,gah durulub axdım hey...*
*Yüz gümanla ağ yollara baxdım hey...*
*Getdi gözlərimin ay ağı,bir-bir.*

*Məmməd İlqar,dar günündü,seyr elə-*
*Nə vaxt düşər, bir də belə seyr ələ...*
*İnanmazdın-qohum-qardaş seyrələ-*
*Çəkilə dostların ayağı bir-bir.*

***

*Ölüb dirilirəm minillərdi ki,*
*Ölüm göstərirsən nə mənə,Tanrı?..*
*Sənin qəhrin hədər,mənim qargışım-*
*Nə sənə yaraşar,nə mənə,Tanrı.*

*Nə sadiq əsgərdi kədər,gör sənə,*
*Üzüm üzlər görüb,kədər görsə nə?..*
*Qıyma körpə gözdə kədər görsənə,*
*Qönçə yanaqlara nəm ənə,Tanrı.*

*Məmmədi qorxutmaz qar-ayaz daha,*
*Neynər Savalanda qara,yaz daha?!.*
*Yüz də taleyimi qara yaz daha-*
*Nəmənə dərddi ki,nəmənə,Tanrı?!.*